

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 203 (23.615)

24 noyabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib. Görüşdə Rusiyanın qurumlararası nümayəndə heyətinə daxil olan Rusiya Baş nazirinin müavinləri Aleksandr Novak və Aleksey Overçuk, səhiyyə naziri Mixail Muraşko, Rusiyanın İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət üzrə Federal Xidməti – "Rospotrebnadzor"un rəhbəri Anna Popova, "Rusiya Dəmir Yolları" ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov da iştirak ediblər.

Qonaqları salamlayan Prezident İlham Əliyev üçtərəfli Bəyanatın regionda möhkəm və uzunmüddətli sülhün bərqərar olması işində mühüm addım olduğunu, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin bu prosesdəki şəxsi rolunu xüsusi qeyd edib.

Regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi işində Türkiyə Prezidenti cənab Rəcəb Təyyib Ərdoğanın da mühüm rolunu vurğulayan dövlətimizin başçısı əminliyini bildirib ki, nizamlama prosesi həm Azərbaycan xalqına, həm də Ermənistan xalqına sülh şəraitində yaşamağa, müharibənin vurduğu yaraları sağaltmağa, təhlükəsiz gələcək barədə düşünməyə çalışmağa imkan verəcək.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya Federasiyasının Azərbaycanın 9 noyabr tarixli Bəyanatı dəstəkləyən mövqeyini yüksək qiymətləndirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.

* * *

Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

# Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclası keçirilib

Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi





ilə təşkilatın Siyasi Şurasının iclasında "Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr" müzakirə olunmuşdur.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik"*** fikirləri ilə iclası açaraq demişdir ki, ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət yetirmiş, güclü və qüdrətli Azərbaycan Ordusu yaradılmışdır. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzü bərpa etmiş, torpaqlarımız işğaldan azad olunmuş, Azərbaycan düşmən üzərində böyük tarixi qələbə qazanmışdır. Bu qələbənin qazanılmasında yaralanıb sağlamlığını itirənlər və şəhid olanlar da olub.

Ali Məclisin Sədri Vətən müharibəsində yaralananlara şəfa diləmiş, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iclasda məruzə edərək demişdir: 1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyası ötən dövrdə böyük inkişaf yolu keçmişdir. Ulu öndərimiz Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini belə əsaslandırmışdır: ***"Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış partiyadır. Buna görə də bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub saxlanmasının yox, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinin təminatçısıdır"***.

Qeyd olunmuşdur ki, tarix bir daha təsdiq etdi ki, Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının mütləq iradəsini əks etdirən siyasi təşkilat kimi dünənimizin, bu günümüzün və gələcəyimizin partiyasıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etmiş, müstəqilliyimizi qorumuşdur. Bu gün isə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı davamlı inkişaf yoluna çıxarmış, dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Ölkəmizdəki bugünkü inkişaf və tərəqqiyə, sabitliyə, təhlükəsizlik və yüksək rifaha Yeni Azərbaycan Partiyasının ideoloji prinsiplərinin həyata keçirilməsi nəticəsində nail olunmuşdur. Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi və qazandığı böyük tarixi qələbə də ümummilli liderimiz tərəfindən işlənib hazırlanmış və Yeni Azərbaycan Partiyasının platformasında öz əksini tapmış ordu quruculuğu strategiyasının uğurlu davam etdirilməsinin nəticəsidir.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verərək demişdir: Bu gün Naxçıvan Muxtar Respublikası Yeni Azərbaycan Partiyasının proqramının həyata keçirilməsi nəticəsində yüksək inkişafa nail olmuşdur. Makroiqtisadi göstəricilərin ilbəil artması, abadlıq-quruculuq işlərinin həcminin və miqyasının genişlənməsi, əhali rifahının yaxşılaşması ulu öndərimizin yoluna sədaqətin bəhrələridir. Bütün bunların hesabınadır ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıraları xeyli genişlənmişdir. Hazırda partiyanın muxtar respublika təşkilatının 57 mindən çox üzvü vardır ki, onların da 44 faizi qadınlar, 41 faizi isə gənclərdir. Partiya üzvləri muxtar respublikanın siyasi fəal əhalisinin 18 faizini təşkil edir. Ümummilli liderimiz deyirdi ki, ***"Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etməkdir"***. Dahi şəxsiyyətin bu fikirləri partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının əsas fəaliyyət istiqaməti olmalıdır. Yeni Azərbaycan Partiyasının tarixi və keçdiyi yol müasir Azərbaycanın inkişaf tarixidir. Lakin biz əldə olunanlarla kifayətlənməməli, real həyat şərtlərinə uyğun olaraq fəaliyyət göstərməliyik. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı bundan sonra da muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlarda yaxından iştirak etməli, ümumi inkişafın mahiyyətinə uyğun təhlillər aparılmalı, işə yaradıcı yanaşılmalı, təkliflər verilməlidir.

Ali Məclisin Sədri demişdir: Hər bir siyasi təşkilat özünün gələcəyini düşünür. Çünki bunsuz siyasi fəaliyyət mümkün deyil. Partiyanın Heydər Əliyev adına Gənclər Birliyi də aid dövlət qurumları ilə birlikdə yaradılmış şəraitdən səmərəli istifadə etməli, gənclərin partiya sıralarında formalaşması diqqətdə saxlanılmalı, varislik təmin olunmalıdır. Partiyanın İcra Katibliyi, Gənclər Birliyi, şəhər və rayon təşkilatları yeni üzvlərlə fərdi işə üstünlük verməli, onların siyasi bilikləri yoxlanılmalı, təsadüfi şəxslərin partiya sıralarına qəbuluna imkan verilməməlidir. Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyət deməkdir. Qarşıda duran əsas vəzifələrdən biri də hər bir üzvün partiya işində yaxından iştirakını təmin etməkdir. Çalışıb ona nail olmaq lazımdır ki, üzvlər öz fəaliyyətlərində partiyanın prinsiplərini əsas götürsün, onun nüfuzunu qorusun, ideyalarını təbliğ etsin, ictimai-siyasi məsələlərdə aktivlik göstərsin, fəal vətəndaş mövqeyi tutaraq milli dəyərlərimizin, adət-ənənələrimizin qorunması və yaşadılması işində yaxından iştirak etsinlər.

Ulu öndərimiz deyirdi ki, ***"Yeni Azərbaycan Partiyası qəlbən ona bağlı olanların partiyasıdır. Yalnız bu yolla biz partiyamızı sağlamlaşdıra, daha da mətinləşdirə, daha da gücləndirə bilərik"***. Ona görə də hər bir partiya üzvü fəaliyyətini ümumi siyasi xəttə uyğun qurmalı, xüsusilə seçki prosesləri zamanı layiqli namizədlər irəli sürülməlidir. Partiya işinin təşkilində ərazi ilk təşkilatlarının üzərinə mühüm vəzifələr düşür. Hazırda muxtar respublikada 502 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Ərazi ilk təşkilatları üçün lazımi iş şəraiti yaradılıb. Ona görə də yerlərdə vətəndaşlarla işə üstünlük verilməli, həyata keçirilən tədbirlərin mahiyyəti düzgün izah olunmalı, səmərəli təbliğat mexanizmi qurulmalı, tikilənlərə, qurulanlara biganə münasibətin qarşısı alınmalıdır.

Qeyd olunmuşdur ki, qadınların ictimai-siyasi həyatda fəal iştirakı vacib məsələdir. Partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatında qadınların sayı və fəallığı ilbəil artır. Ona görə də partiyanın qadınlar şuraları yeni layihələr üzərində işləməli, keçirilən tədbirlərin məzmunu və keyfiyyəti artırılmalıdır. Müasir dövrdə informasiya-məlumatlandırma işi sağlam cəmiyyət quruculuğunda əsas məsələdir. İcra Katibliyi, Gənclər Birliyi, şəhər və rayon təşkilatları bu amili diqqətdə saxlamalı, ictimai fikir düzgün istiqamətləndirilməli, partiyanın gənc üzvlərinin, kütləvi informasiya vasitələrinin və sosial medianın imkanlarından səmərəli istifadə olunmalıdır.

Ardı 2-ci səhifədə

Partiya işində nizam-intizam başlıca şərtdir. Yeni Azərbaycan Partiyasının üzvü cəmiyyət və dövlət qarşısındakı məsuliyyətini dərk etməli, işə münasibətdə daim tələbkar olmalı, verilən tapşırıqları vaxtında yerinə yetirməlidir. Partiya işini pozan və nüfuzunu qorumayan üzvlər partiya sıralarından kənarlaşdırılmalıdır. Bununla yanaşı, İcra Katibliyində, şəhər və rayon təşkilatlarında, eləcə də ərazi ilk təşkilatlarında sənədlərlə işə də diqqət artırılmalı, arayış və hesabatlar vaxtında təqdim olunmalıdır.

Ali Məclisin Sədri demişdir: Ulu öndərimiz Yeni Azərbaycan Partiyasını yaradarkən qarşıya bir məqsəd qoymuşdu: ***Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı yaşatmaq və qüdrətli dövlətə çevirmək.*** Qarşıdakı illərdə də dahi rəhbərin ideyaları əsas fəaliyyət istiqamətimiz olacaqdır. Partiyamızı və ölkəmizi ümummilli liderin yolu ilə aparan dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız Azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq".***

Ali Məclisin Sədri bu yolda partiya üzvlərinə uğurlar arzulamışdır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi Anar İbrahimov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabatla çıxış edərək demişdir ki, muxtar respublika təşkilatı üç seçki kampaniyasında – 23 dekabr bələdiyyə və 9 fevral tarixində keçirilmiş Azərbaycan və Naxçıvan Muxtar Respublikasındakı parlament seçkilərində iştirak etmiş və hər üç siyasi kampaniyada qələbə qazanaraq, siyasi nüfuzunu və sosial dəstəyini bir daha nümayiş etdirmişdir. Bələdiyyə seçkilərində təşkilatımız öz işini seçki qanunvericiliyi əsasında qurmuş, 170 bələdiyyə üzrə mövcud olan 1486 yerin 1114-nü qazanmışdır. Milli Məclisə seçkilər üzrə Yeni Azərbaycan Partiyasını təmsil edən namizədlər, bütövlükdə, muxtar respublikada 99 min 845 etibarlı səs qazanmışlar, bu da seçkidə iştirak edən seçicilərin 52 faizini təşkil edir. 2020-ci il yanvarın 1-nə partiya üzvlərinin sayı 56 min 697 nəfər olmuşdursa, hazırda üzvlərin sayı 57 min 241 nəfərdir. Onların 24 min 959-u qadın, 23 min 78-i isə gənclərdir. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatında ziyalıların və ali təhsilli üzvlərin sayı artmışdır. Onlardan 39 faizi ali, 21,2 faizi isə orta ixtisas təhsillidir. Bu gün partiya uçotunda duranların 27-si elmlər, 178-i isə fəlsəfə doktorlarıdır. Bununla yanaşı, üzvlərin 18,8 faizi təhsil, 6,6 faizi səhiyyə, 4,7 faizi elm, mədəniyyət və incəsənət sahəsində, 5,1 faizi idarəetmə strukturlarında, 47,2 faizi digər sahələrdə çalışanlardan, 4,3 faizi təqaüdçülərdən, 4,6 faizi tələbələrdən ibarətdir. Üzvlərdən 3-ü Azərbaycan Respublikası Milli Məclisinin, 41-i isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Kəndlərdə ərazi ilk partiya təşkilatları üçün iş otaqlarının ayrılması davam etdirilmiş, 7 ərazi ilk partiya təşkilatı kənd mərkəzlərində müasir iş otaqları ilə təmin olunmuşdur. Cari ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, şəhər və rayon partiya təşkilatlarının xəttilə 23 müxtəlif tədbir keçirilmiş, 21 İdarə Heyəti, 11 Şura yığıncağı olmuşdur.

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Ehtibar İsmayılov çıxış edərək demişdir ki, siyasi partiyalar o zaman uzunömürlü olur ki, onun arxasında xalq, fəaliyyətində isə real iş dayanır. Sağlam qüvvələri öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası da məhz belə siyasi təşkilatdır. Partiyamızın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin Ali Məclis Sədri tərəfindən uğurla həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublikamızın, o cümlədən Ordubad rayonunun siması tanınmaz dərəcədə dəyişilmiş, yaşayış məntəqələri müasir görkəmə qovuşmuşdur. Cari ildə Ordubad rayonunda 24 obyektdə tikinti işləri aparılmış, hər bir yaşayış məntəqəsində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatları üçün lazımi iş şəraiti yaradılmışdır. Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında 54 ilk partiya təşkilatı mövcuddur və 6513 nəfər partiya sıralarında təmsil olunur. Onlardan 3137-si qadın, 1593-ü isə gənclərdir. 2020-ci ilin ötən dövründə Ordubad rayonunda 184-ü gənc, 137-si qadın olmaqla, 289 nəfər Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olunmuşdur. Partiya üzvləri rayonun, eləcə də muxtar respublikanın ictimai işlərində daim fəal iştirak edirlər.

Naxçıvan Dövlət Universitetinin müəllimi Aidə Cəlilzadə çıxış edərək demişdir: Muxtar respublikada qazanılan ən böyük nailiyyətlərdən biri də yaşından və cəmiyyətdəki sosial statusundan asılı olmayaraq, insanlardakı vətənpərvərlik hissidir. Naxçıvanın mərd oğullarının Vətən müharibəsində göstərdiyi qəhrəmanlığın əsasında da məhz bu vətənpərvərlik dayanırdı. Hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 23 min 78-ni gənclər təşkil edir. Yeni Azərbaycan Partiyasının üzvü olan gənclərdən 12 min 203-ü qadındır. V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə muxtar respublika parlamentində 7 nəfərlə təmsil olunan qadınlarımızın sayı VI çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə 11 nəfərə çatdırılmışdır ki, onların da hamısı Yeni Azərbaycan Partiyasının üzvləridir. Partiya sıralarında təmsil olunan qadınlarımızdan 1-i Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 186-sı bələdiyyə üzvü, 120-si ərazi ilk partiya təşkilatı sədrləridir. Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının 2162 üzvü vardır. Onlardan 211-i professor-müəllim heyəti, 1210-u isə qızlardır. Vaxtilə ərazi ilk təşkilatının fəalları olan gənclər hazırda ölkəmizin və muxtar respublikamızın müxtəlif ictimai-siyasi strukturlarında uğurla fəaliyyət göstərirlər. Tələbə olarkən Yeni Azərbaycan Partiyasına daxil olaraq ilk siyasi təcrübəsinə buradan başlayan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilən və təhsil aldığım universitetdə müəllim kimi çalışan biri kimi öz timsalımda partiyamızın gənclərin düzgün istiqamətləndirilməsi, istedadlarının üzə çıxarılması və onların önə çəkilməsi, gender bərabərliyinin təmin olunmasındakı rolunu xüsusi vurğulamaq istərdim.

Çıxış edənlər minnətdarlıqlarını bildirmiş, ordumuzun qazandığı tarixi qələbə münasibətilə Ali Məclisin Sədrini partiya üzvləri adından təbrik etmişlər.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının qərarı oxunmuş, Siyasi Şuranın və İdarə Heyətinin yeni tərkibi səsə qoyularaq qəbul edilmişdir. Qərara əsasən Məhərrəmov Saleh Heydər oğlu Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının və İdarə Heyətinin tərkibindən çıxarılmış, İsmayılov Ehtibar Şəhrud oğlu və Cəlilzadə Aidə Məhəmməd qızı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının, İsayev Elbrus Saleh oğlu isə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İdarə Heyətinin tərkibinə daxil edilmişlər.

Ehtibar İsmayılov, Aidə Cəlilzadə və Elbrus İsayev göstərilən yüksək etimada görə minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqlarını bildirmişlər.

Ali Məclisin Sədri gənclərin siyasi cəhətdən düzgün formalaşdırılması, partiya sıralarındakı nümunəvi gənclərin fəaliyyətinin təbliğ olunması və görüşlərin keçirilməsi, muxtar respublikada nəşr olunmuş kitablardan, xüsusilə də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı", Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın "Naxçıvanın publisistik xəritəsi" və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirlinin "Yaratmaq amalı" kitablarının gənclərin vətənpərvərlik tərbiyəsində əsas mənbə kimi istifadə olunması barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü və qazanılan tarixi qələbə münasibətilə partiyanın muxtar respublika təşkilatının üzvlərini təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda şəhidlərin qarşılanma mərasimi olub

Hər bir ordunun gücü onun şəxsi heyətinin vətənpərvərliyində və birliyindədir. Vətənpərvərlik, birlik həm də ölkənin müstəqilliyinin təminatıdır. Bu gün Azərbaycanda dövlət-xalq-ordu birliyi vardır. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"Xalq ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi dövlət müstəqilliyimizin bu gün də, gələcəkdə də əsasını təşkil edir".*** Azərbaycan xalqının ölkə başçısı cənab İlham Əliyevin və ordumuzun ətrafında sıx birləşərək tarixi qələbə qazanması bunu bir daha təsdiq etdi. Vətənpərvərliyin ən ali məqamına çatan Naxçıvan oğulları da döyüşlərdə əsl qəhrəmanlıq göstəriblər. Vətən, millət uğrunda canından keçən qəhrəmanlarımız əbədi həyata – şəhidlik zirvəsinə yüksəliblər.

Noyabrın 22-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.



Dövlət və hökumət nümayəndələri, şəhidlərin ailə üzvləri də tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız İsgəndərov Niyaməddin Qulu oğlunun, Möhsümov Elmar Rövşən oğlunun və Hüseynov Mətin Ramiz oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiətilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları kəndlərə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

Azərbaycan xalqı yenilməz və mübariz xalq olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının qəhrəmanlıqları ilə bir daha təsdiqlədi. Xalqımız belə qəhrəmanları həmişə qəlbində yaşadır. Çünki torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edənlərin ömür yolu Vətənə sədaqət rəmzidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Vətən sevgisindən doğan azadlıq şüarı – Qarabağ Azərbaycandır!

***Bu gün Vətən, azadlıq, mübarizə, iradə, əzm, güc, ordu, xalq, birlik, zəfər, qələbə sözlərini tez-tez eşidirik. Bu ifadələrin işlənməsinin ən böyük səbəbkarı isə çoxdan bəri səbirsizliklə gözlədiyimiz Qələbə xəbərini bizə çatdıran Ali Baş Komandanımız cənab İlham Əliyev və bu Qələbənin böyük sevincini xalqımıza yaşadan yenilməz Ordumuzdur. Bu qalibiyyətin isə bir səbəbi vardır: Güclü ordu və iqtisadiyyat, Ali Baş Komandan-xalq-ordu birliyi!***

Məlum olduğu kimi, bu il sentyabrın 27-də Ermənistan hərbi birləşmələri Azərbaycanın Tovuz rayonu istiqamətində təxribatçı hücumlara başladı. Nəticədə, ordumuz tərəfindən bütün cəbhəboyu ərazilərdə əks-hücum əməliyyatları ilə düşmənə layiqli cavab verildi. Tarixə 44 günlük müharibə kimi düşən bu savaşda Azərbaycan Ordusu əsl peşəkarlıq ortaya qoyaraq düşmənin bütün mövqelərini darmadağın etdi və işğal altında olan ərazilərimizin böyük bir hissəsi geri alındı. Cənab İlham Əliyev bu şad xəbərləri Ali Baş Komandan kimi şəxsən özü xalqımıza çatdırdı. Bundan sonra hər birimiz günboyu səbirsizliklə Ali Baş Komandanın çıxışlarını gözləyirdik. Noyabrın 8-də Şuşanın azad edilməsi isə hər birimizin qəlbini qürurla doldurdu. Artıq Şuşa qələbəsi Azərbaycanın işğal altında qalan digər ərazilərinin də yolunu açmışdı. Noyabrın 10-da düşmənin üçtərəfli Bəyanata imza atması isə illərdir, işğal altında qalan bütün torpaqlarımızın azad edilməsinə rəvac verildi. Problemə böyük humanizm mövqeyindən yanaşan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bununla da 30 ilə yaxındır, davam edən bir münaqişənin sonunu yaxınlaşdıraraq Böyük Qələbənin altına öz imzasını qoydu. Beləliklə, 10 noyabr tarixi Azərbaycanın əldə etdiyi Böyük Qələbənin tarixinə çevrildi.

Bu zəfər tariximizi yazanlar isə onun keşiyində ayıq-sayıq duran, Vətən uğrunda gedən döyüşlərdə rəşadətlə mübarizə aparan oğullar, hər qarış torpağımız üçün canından keçən, şəhidlik məqamını fəth edən Vətən fədailəri oldu. O şəhidlər ki analar, atalar, bacılar, övladlar, bir sözlə, bütün Azərbaycan onlarla qürur duyur və duyacaq. Qələbə soraqlı şəhidlərimizin qarşısında həmişə baş əyəcəyik. Onları fəxarətlə qarşılayıb, iftixarla son mənzilə yola salırıq. II Qarabağ döyüşlərində üçrəngli Azərbaycan bayrağına sarılaraq gələn şəhidlərimizi geniş xalq kütləsi qarşılayır. Azadlıq mücadiləsində Naxçıvan torpağının da igidləri tarixi torpaqlarımızın azad edilməsində öz sözlərini dedilər. Şəhid olan hərbi qulluqçularımız İsgəndərov Niyaməddin Qulu oğlu və Möhsümov Elmar Rövşən oğlu Kəngərli rayonunun Xok kəndində, Hüseynov Mətin Ramiz oğlu isə Ordubad rayonunun Düylün kəndində son mənzilə yola salınıblar. Qəhrəman oğullarımızın dəfn mərasimlərində dövlət və ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak etdi.

Bir xalq olaraq biz bugünkü Qələbəmizi Vətən torpağını azad etmək arzusu ilə yaşayan, Vətənə xidmət etmək istəyən oğullara borcluyuq. İllərdir, işğal altında olan torpaqların azad edilmə xəbərlərinin sevincini bizə yaşatdıqları üçün bundan sonra da onlara borclu olacağıq. Çünki onlar Vətən torpağını qorumağı, çox düzgün olaraq, mənəvi vəzifə, Vətənə sevgi bildilər. Elə bir sevgi ki azadlıq üçün, xalqın rifahı üçün, Vətənin şəhid övladları üçün qan töküb, öz canlarını fəda etməyi gözə aldılar. Şəhadət şərbətini içdilər, bu zəfəri xalqımıza bəxş etdilər. Göstərdilər ki, Vətənin bütövlüyünə gedən yolda əsas amil də Vətənə, torpağa olan müqəddəs, ülvi sevgidir. Çünki Vətən sevgisi elə azadlığın özüdür. Məkanı cənnət olan şəhidlər, silahınız güclü, sözünüz kəsərli oldu. Qarabağ Azərbaycandır!

**Türkan HÜSEYNLİ**

# "Qarabağ" dastanının "Ağdam" boyu



*20 noyabr 2020-ci il. Nə gözəl, yaddaqalan tarixə təsadüf edir Ağdamın ağ gününə qovuşması. Üzünə həsrət qaldığı, dalğası hicranı olan bayrağına qovuşması. Bütün rənglərin təməlində ağ rəng dayanır, – deyirlər. Öz bəyazlığı fonunda üç rəngdən yaratdığı bayrağını sinəsinə sancdı, başını dik tutub "Mən azad oldum, mən doğma Vətənimə qovuşdum", – dedi Ağdam. 44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk Qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq:* ***"Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".***

### *Ağatlı oğulların, ağduvaqlı qızların oylağı*

27 il idi ki, adından "ağ" sözünü çıxarıb Qarabağın qara bəxti, qara taleyi adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu yerlərin ağ gününə qara tüstü püskürmüşdü. İllərdir, yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər – bununla ailələrin ümidləri sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyaca məşhur Qarabağ atlarının məskəni olan Ağdamın ağatlı oğullarından, ağduvaqlı qızlarından "danışırdı". 27 il əvvəl Qarabağın qoynundakı ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam etməyəcəkdi. Çünki azərbaycanlıların belə bir deyimi var...

### *Qara günün ömrü az olar*

Bəli, qara günün ömrü 27 il olsa da, 27 sentyabrdan başlanan Vətən müharibəsi qısaltdı Ağdamın qara günlərinin ömrünü. Müzəffər Ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, o yuxulardakı ağatlı oğulların düşmənin qara kabusuna çevrilməsi qısaltdı Ağdamın qara günlərinin ömrünü. Ali Baş Komandanımızın da söylədiyi kimi, Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə – işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulmuşdur ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu və digər amillər Qələbəmizi şərtləndirdi.

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın Qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri Qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən, başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldular. Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər səhifəsini yazan Azərbaycan övladlarının şücaəti ilə Ağdamı ağdamlılara və doğma Azərbaycana qaytardı. Həmin gün Ağdamın "çöhrəsini" gülümsəyən gördüm...

### *Ağdama gülümsəmək necə də yaraşır...*

Qədim tarixə malik çoxlu sayda memarlıq və incəsənət abidələri ötən 27 ildə yerləyeksan olunub Ağdamımızın. XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalası, onlarla muzey, məscid, kitabxana, teatr, məktəb düşmənin vəhşiliyi ilə üzləşib. Meşələr yandırılıb, məhv edilib. Məscidlərdən çirkin məqsədlər üçün istifadə olunub. Lakin Vətən oğulları əllərinə silah alıb düşməni torpaqlarımızdan qovduqları kimi, məscidlərimizə də həmin əllərlə təmizlənmək, paklanmaq nəsib oldu. Bu qeyrətli oğulların sayəsində Ağdamın azan səsi təşnəsinə də son qoyuldu. Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Bu gün Ağdam doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyir. 27 il ağ çöhrəsinə qara qaşqabaq çökən Ağdam gülümsəyir. Dağıdılmış, viran edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyir. Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlib. Minlərlə evinin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına vermək, buraya yeni növraq bəxş etmək üçün gəlib. Bu üzdən də Ağdam gülümsəyir. Qələbəsini, azadlığını bayram edir. Bütün işğaldan azad olunmuş torpaqlarımız kimi, Ağdamın da üzünə gülümsəmək necə də yaraşır... Bu gülümsəmənin fonunda Ağdamın gülməyini təsvir edirəm, əgər...

### *Dağılan tifaqlar olmasaydı...*

Bizdə belə bir qarğış var: "tifağın dağılsın". Bəlkə də, təsadüfən eşidərkən bu qarğışın çox da dərindən fərqinə varmır insan. Əsəbiləşən bir insanın ağzından çıxan bəddua kimi qarşılayır onu. Lakin işğaldan azad olunan yurd yerlərimizi televiziya ekranlarından izləyərkən bu qarğışın tam mahiyyətini anlamağa başladım. Daş üstə daş qalmayan evləri, uçulub dağıdılmış hasarları, soyğunçuluğa məruz qalmış evlərin dam örtüklərini, qapı-pəncərələrini gördükcə "tifağın dağılsın"ın nə qədər ağır qarğış olduğunu dərk etdim. Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsini, əsərin leymotivini – ictimai-əxlaqi tənəzzülə məruz qalmış mülkədarların mənfur təbiətindən doğan xarakterləri ilə tifaqların, ocaqların dağılmasını xatırladım. "Sən demə, tifağın dağılması belə olurmuş" sözlərini dəfələrlə pıçıldadım özözümə. Bəs, görəsən, bu tifaqları dağılmışların, daha doğrusu, dağıdılmışların günahı nə imiş? Bu tifaqları dağıdanlar insan görüntüsündə hansı varlıqlardır?.. Düşündükcə düşünür, bu görüntülər qarşısında insan dəhşətə gəlir. Görəsən, həyatında bir dəfə daşı daş üstünə qoyub yurd salan bir insan başqa bir yurdu dağıda bilərmi? Mən bu qənaətə gəlirəm ki, bu yurdları bu günə qoyanların ev-eşiyi, övladı ola bilməz. Bu faciələri yalnız insani hisslərdən məhrum olanlar törədə bilərlər. Lakin qoy bilsinlər ki, bizə tifaqlar yox, torpaqlar lazımdır, çünki...

### *Su gələn arxa bir də gələr...*

Bəli, dilimizdə belə bir deyim də var ki, su gələn arxa bir də gələr. Yurd salmaq, ev tikmək nə qədər çətin olsa da, uzun illərə başa gəlsə də, çox insanlar üçün bir ömrə bərabər olsa da, belə imiş Qarabağ torpaqlarının sakinlərinin alın yazısı. Dağıdılacaqmış illərlə qurub-yaratdıqları. Yeməklərindən, geyimlərindən kəsib daşa, quma verib ucaltdıqları yurdları dağıdılacaqmış. İçərisində nə xəyallar qurduqları evlərə həsrət qalacaqmışlar. Nə arzularla əkdikləri ağaclar bar üstündə düşmənin xəyanətkar əllərinə veriləcəkdi. 27 il bu yurdun insanları köçkün həyatı yaşayayaşaya tək təsəllilər Ağdamın ağ günlərini xəyallarında canlandırmaq olacaqdı. Amma bir məsələ də var ki, gedənlərin, itirilənlərin hər birini qaytarmaq olar, tək torpaqdan savayı. Qoy yansın, sökülsün, dağılsın evlərimiz. Ta ki torpaqlarımız özümüzünkü olsun, yadlar ona sahib çıxmasın. Qoy ev-eşiksiz qalaq, torpağın üzərində süfrə açaq, çörək kəsək, evimiz torpağın üzəri olsun, lakin torpağımız özümüzün olsun. Torpaq varsa, onun üzərində hər zaman gözəl, yaraşıqlı evlər qurmaq mümkündür. Su gələn arxa bir də gələr, – deyib atalarımız. O arxın varlığı ilə ona yenidən su gələ bilirsə, torpağın varlığı ilə də yeni yurdlar salına bilər. Ağdamda da salınacaq o yurdlar. Sevinəcək, güləcək kəndləri, şəhərləri, insanları. Ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb...Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda dediyim kimi, əhali baxımından ən böyük rayondur… Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır".***

Bəli, bu yaz Ağdama başqa cür gələcək...

### *"Qarabağ bülbülləri" də bu yaz cəh-cəh vuracaq*

Bu yaz Günəş bir başqa doğacaq, güləcək Ağdamın üzünə. Torpaq qış yuxusundan ayılan zaman köksündə doğma addımları, tanış əlləri hiss etdikcə yağıdan canının qurtarmasını bayram edəcək. Çəmənlərdə, düzlərdə Qələbə çiçəkləri açacaq. Ağdam yenidən əvvəlki cənnətə çevriləcək. Bağları-bağçaları ilə məşhur bu yurd öz yeni növrağına qovuşacaq. Bağçalardakı cəh-cəh vuran bülbüllərdən ilham alan "Qarabağ bülbülləri" "Qarabağ şikəstəsi"ni oxuyarkən bu sədaları eşidən qonşuluqdan kənar olmasını çox arzu etdiyimiz, lakin qonşuluğu alın yazımız olan düşmən məğlubiyyətini bir daha dərk edəcək. Kaş onu da əbədiyyən dərk edərdi ki, xalq, millət, milli dəyərlər, tarix, incəsənət, mədəniyyət – tar, kaman, saz, muğam olan yerdə axı erməni necə ola bilər?.. Gərək düşmən edirsə də, barı öz mentalitetinə uyğun ərazilərin iddialarını etsin axı...

**Mətanət MƏMMƏDOVA**

---

## Vətən müharibəsi iştirakçıları geri qayıdırlar



Sentyabrın 27-dən başlayaraq noyabrın 10-dək davam edən, müzəffər Ordumuzun Qələbəsi ilə nəticələnən Azərbaycan Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da iştirak edib, döyüşlərdə göstərdikləri böyük şücaət və qəhrəmanlıqları ilə seçiliblər. Təsadüfi deyil ki, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev də xalqa müraciətində bunu xüsusi qeyd edərək deyib: ***"Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır. Bəzi bu günə qədər açıqlanmayan məsələlər də üzə çıxacaq. Və hər kəs biləcək ki, bütün başqa bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər. Və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər. Şəhidlər veriblər".***

Vətən müharibəsində iştirak edən, döyüş tapşırıqlarını uğurla yerinə yetirən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından bir qrupu noyabrın 22-si gecə saatlarında Naxçıvana geri qayıdıblar. Şərəfli döyüş yolu keçən qəhrəman Vətən oğullarını Sədərək gömrük-keçid məntəqəsindən etibarən yüzlərlə sakin izdihamlı şəkildə müşayiət edib, yolboyu üçrəngli bayrağımız dalğalandırılıb, Vətənimizin bütövlüyü, igidlərimizin şücaəti ilə bağlı şüarlar səsləndirilib.

## Şənbə iməciliklərində mütəşəkkillik göstərilib

Noyabr ayının 21-də keçirilən iməciliklərdə muxtar respublikanın sakinləri fəallıq göstəriblər. Naxçıvan Şəhər Sutəmizləyici Qurğular Kompleksinin ətrafındakı 4 hektarlıq bağda 900 meyvə və 900 meşə ağacı, ümumilikdə, 2,5 hektarlıq ərazidə bərpa məqsədilə 600 meşə ağacı və 300 gül kolu əkilib.

İməcilikdə şərurlular da yaxından iştirak ediblər. Belə ki, Dizə, Həmzəli və Axura kəndləri istiqamətində yol kənarlarında bərpa məqsədilə, ümumilikdə, 500 meşə ağacı əkilib, yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib.

Babəklilər Arazkənd yaxınlığındakı 2 hektarlıq ərazidə bərpa məqsədilə 1000 meşə və 200 meyvə ağacı əkib, yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Ordubadlılar Bayraq Meydanının arxasındakı 0,6 hektarlıq bağda 450 meyvə, Ordubad şəhər – Aşağı Əylis kəndi arasında yol kənarlarında bərpa məqsədilə 200 meşə ağacı əkiblər.

Culfa rayonunun sakinləri Camaldın və Ərəzin kəndləri ərazisindəki 2 hektarlıq yeni bağda 1000 meyvə, bərpa məqsədilə, ümumilikdə, 2 hektarlıq ərazidə 200 meşə və 200 meyvə ağacı, Culfa düzündəki 0,3 hektarlıq ərazidə 250 üzüm kolu əkiblər.

Kəngərli rayonunun Böyükdüz kəndindəki 1,2 hektarlıq yeni bağda 700 badam, kənddəki 11 hektarlıq bağda bərpa məqsədilə 300 meyvə, Sement zavodunun yaxınlığındakı 0,3 hektarlıq ərazidə 150 həmişəyaşıl, Naxçıvan-Sədərək magistral yolunun Böyükdüz kəndi hissəsindəki 4 hektarlıq ərazidə isə bərpa məqsədilə 150 meyvə və 400 meşə ağacı əkilib.

Şahbuz rayonunda Sələsüz-Türkeş kəndləri arasındakı yol-kənarı ərazidə 3,2 hektarlıq yeni



salınmış bağda 4200 üzüm tingi, Türkeş kəndindəki 2,5 hektarlıq ərazidə bərpa məqsədilə 200 meyvə ağacı əkilib.

Sədərək rayonunda Bayraq Meydanı ətrafındakı 1 hektarlıq ərazidə bərpa məqsədilə 1000 meyvə, Naxçıvan-Sədərək magistral yolunun kənarında 200 meşə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

İməciliklərdə, ümumilikdə, muxtar respublika üzrə 19 min 166 nəfər iştirak edib. 14 min 800 ağac və bəzək kolları, 4000 meşə ağacı, 5900 meyvə ağacı, 150 həmişəyaşıl ağac, 4450 üzüm, 300 bəzək kolu əkilib.

**Xəbərlər şöbəsi**

# İndi bir olmaq, tarix yazmaq zamanıdır



*Hansı yara sağalmaz ki?! Məlhəmi torpaq, qucağı Vətən olarsa?! Düşmənin atdığı mərminin ucu bağrımızı dəlib, yaddaşımızı qanatsa, qanayar yurd yarası. Tarix yaraları, qanla yazılmış izləri unutmaz, qan yaddaşına həkk edər. Tarix tarixləri yaşadar, ey şəhid qardaşım, tarix yarımçıq qalanları yaşadaraq tamamlayar.*

Əsrlərdir, bu torpaq intiqam üçün şərəf, namus, ləyaqət yetişdirib əlinə cəsarət silahını verir qarabəxtli Qarabağ üçün. Köksünə sancılan oxla ayaqda qalan, uğrunda tökülən qanla qidalanan, hələ də əsir düşmüş, didərgin olmuş insanları bağrına basan, özünü sığınacaq edib onlara yurd olan, onlara nəfəs verib özü nəfəssiz qalan, uşağından-böyüyünə Qarabağ deyən dillərdə bir əfsanə Qarabağ yaşayır, bir gün canına – Azərbaycanına qovuşacağı ümidindən yapışıb güc alan Qarabağım... Bağrın yansa da, çatlasa da, dözdün, dayandın!.. Başlandı çal-çağırlı, azərbaycanlı günlərin, qara taleyinin ağ günlərə büründüyü günlərin... Minlərlə ölən günahsız insanların qanı ilə ağarıb, ağ günə çıxdığın günlərin!..

İnanırdıq ki, qan varsa, şəhid varsa, deməli, zəfər yaxındadır, mütləq bizim olanı qaytarıb, o həsrəti vüsala çevirəcəyik. Doğma ərazilərimizdə azğınlaşan, at oynadan haram əlləri kəsib, torpaqlarımızı məhbəsdən azadlığa buraxacağıq, elə həmin gün həsrətlə gözləyən xarıbülbül əsarətdən qurtulub Azərbaycan üçün cəsarət rəmzi olacaq... Və yenidən xarıbülbül qucaq açacaq öz bülbülünə... O, artıq susduğu illərlə cavab verəcək, bizsə susmadığımız illərlə dinləyəcəyik onu... İllər ərzində neçə dəfə saralsa da, solmadığından, ləçəklərini necə duaya çevirdiyindən, bitdiyi yerə bağlılığından, Qarabağından danışacaq... Biz isə onun bitdiyi yeri hər gün qanımızla necə suvardığımızdan danışırıq bu gün... Bitməyəcək bu illərin yığılmışı, qalmışı... Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam əl-ələ verdi, sonra...

Kəlbəcər, Laçın, Xocalı çox yaxında uğrunda canlarından keçən şəhidlərimizin ölməzlik heykəlini ucaldacaq, elə həmin gün haqqın səsi dünyaya səs salacaq. Polad polad kimi bərkiyib əl-ələ verəcək Mübarizlə... Düzüləcək arxasınca torpağa can verənlər... Dillər himn olub, oxuyacaq:

*Minlərlə can qurban olsa da,*
*Sinəmiz hərb meydanı olsa da.*
*Sən, hər zaman*
*Üçrəngli bayrağınla məsud*
*yaşadın,Vətən!..*

Bu səs Çingizi oyadacaq, yenə müqəddəs bayraqlardan könüllərdəki bayraqlara xoş müjdə verərək çəkəcək filmlər, Azərbaycanın birlik dühasını dünyaya göstərəcək, həqiqətin gücü dünyanı çalxalandıracaq... Haqqın yolundan dönməzliyi, düşmənlərin ölüsünü belə, qorxudub titrədəcək... Yenə Xan gələcək, qurulacaq, taxt-büsat, "Qarabağ şikəstəsi" oxunacaq. Elə həmin gün bu torpaq Üzeyiri, Bülbülü, Rəşidi yenidən dünyaya gətirəcək. Musiqilər, mahnılar ətək-ətək sinəsinə yara vurulan dağları, daşları sağaldacaq. Quşlar da qıy vuracaq, "Azadlıq, Azadlıq!" deyə-deyə... Natəvanın misralarını, simləri qırılmış, yasa batmış tar-kamanını dirildib, toya çağıracaq... Vətən bayram görəcək. Axı Şuşada artıq öz oğulların halay çəkib yallı getdi, torpaq torpağa qovuşdu... Daha torpaq eşitməyəcək mərmi səsi, güllə səsi, lalədən, qərənfildən qan damlamayacaq, daha adları ilə deyil, Vətən uğrunda axıtdıqları qanla tanınacaqlar əsgərlərimiz!.. Ölən arzular, ölən xəyallar, anaların illərlə yaşlı qalan gözlərindən dirilib baş qaldırır artıq. Göz yaşları sevincdən parlayır artıq… çiçək açır ümidlər tapdalanan torpaqlarda... Günəşin heç batmayacağı günlərdir artıq Günəşin haqqa doğduğu gün, Günəşin ölməzliyi – haqqı saçdığı gündür artıq... Gecə də, qaranlıq da, zülmət də öləcək, daha işıqlı, aydın günlər görəcək bu Vətən... Ağaran ağ saçlar gündüz, qırışan əllər yol olacaq, adı isə "Gündüzə çıxmış yol..."

Ölüm haqdır, ona hər kəs qovuşa bilər, ancaq hər kəs haqq üçün dirilə bilməz...Vətən torpağını öz qanları ilə suvaran şəhidlər isə bir ölər, min dirilər.

Sən varsan… Sən gedər-gəlməzin çarxın döndərən, öz qanınla yandırdığın çırağa hələ də işıq olmaqda davam edənsən... Sən sağsan, əbədi yaşayacaqsan, Sənsən indi göylərdə günəş olub haqq saçan, bəyaz buludlara bürünən günahsızlaşan, saflaşan...

Rahat uyu… Ovuc-ovuc torpaq gətirib, zərrə-zərrə qanından Vətən yaradan sən deyilsənmi?! Ölüm, ölüm… deyə səs salan, həyata sipər olub torpaq üçün nəfəs olan, ey şəhid qardaşım, indi yaşayan, yeni dünya quran, ayaq basdığın torpaqlara kök salıb həyat olan sənsən… Biz gördük, ey şəhid qardaşım, canından keçib torpağa can olanları… Zəfər cənglərini, əbədiyyət uğurlarını, torpağın əmanət müjdəçilərini...

Sizsiniz öz bağınıza keşik çəkib bağban olan... Torpağı qərənfillə, lalə ilə allandıran Vətən oğulları, qeyrət simvolları... İndi şərəf, namus deyə yetişdirən torpaq sizi qoynuna alıb yenidən cücərdir, hər gün eyni ruhdan qopan oğullar sönməyən məşəl yaradıb, işıq saçır bu yurda... Bir can verib, hər zaman yaşayan, ey şəhid qardaşlarımız...

Bizi qoynuna alan yumruq boyda torpağımız varsa, biz ölməyəcəyik! Hər zaman yağış ətri gətirən küləklərə qoşulub Vətənimizə torpaq kimi səpilmək, hər qayasında qeyrət, hər daşında ar olmaq istəyəcəyik… Bu yurdda yeni bədənlərdə, eyni ruhdan doğulanlar olub dolaşacağıq... Vətən olub vətənləşən, qan olub bayraqları bayraq edən, mavi səmalara yüksələn, "Azərbaycan!" deyə hökm edən şüar olacağıq... Biz heç zaman ölməyərək, şairin dediyi kimi, bayraqları bayraq edən üstündəki qan, torpaq uğrunda ölən Vətən olacağıq!

Birlik zamanıdır, eşq zamanıdır... Ruhumuzu candan qoparan mərmilərin caynaqlarında, hər gün üçrəngli bayrağa sarılıb, saçların bəyazında, üzlərin qırışında böyüyən candaşlarının otuz illik eşqinə qovuşma zamanıdır! "Yetər!" – deyib əl-ələ vermək vaxtı çatdığını göstərdik! Biz bu cənnət Vətənin hər qarışını geri qaytarmazsaq, şəhidlər o cənnətdən imtina edər. Qanımızın son damlasını axıtdığımız torpaqda azan səsi eşidildikcə, qələm əlimizdə "partladıqca", cümlələr söz-söz cilikləndikcə yazımızda hiss etdik o ağrının içindəki duyğunu! Səngəri gizli görüş yeri olan, namərdə sinəsini sipər edən, şəhid qardaşlarım! Şəhadətiniz mübarək! Sərhəddən keçən mərmiyə göz yummadığın üçün gözümüzdə Vətən böyüyüb dağ oldu. Zaman o zaman deyil, artıq "Ya Qarabağ, ya ölüm!" zamanıdır... "Ya tarix yazmaq, ya tarix olmaq zamanıdır"... Oxu, ey Müşfiqin tarı, oxu! Sən də oxu! Oxu ki namərdə sinəsini sipər edən şəhidlərim rahat uyusun! Biz isə "Cəngi" ilə, "Qaytağı" ilə qeyd edək şanlı zəfərimizi. Əlimizdə bayraq, dilimizdə şikəstə oxuyaraq sancaq ay-ulduzlu bayrağımızı müqəddəs torpaqlarımızın bağrına!

**Fariz ƏHMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru***
**Könül SEYİDOVA**

# Tələbələr Əlincə qalasına zəfər yürüşü ediblər

***Naxçıvan Dövlət Universitetinin Magistr ixtisası üzrə I kurs tələbələri Əlincə qalaya zəfər yürüşü ediblər.***

20 nəfər tələbənin qatıldığı yürüşdə əvvəlcə tələbələr Əlincə muzeyi ilə tanış olublar. Muzeyin bələdçisi qala və arxeoloji qazıntılar nəticəsində tapılan əşyalar barədə tələbələrə geniş məlumat verib. Əlincəqala Tarix Mədəniyyət Muzeyini ziyarət edən tələbələrə məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən yaradılıb. Qeyd edilib ki, qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub.

Daha sonra gənclər "Qarabağ Azərbaycandır!" şüarını, qalanın zirvəsində Azərbaycan və Türkiyə bayraqları fonunda Azərbaycan Respublikasının Dövlət Himnini səsləndiriblər.



Qeyd edək ki, zəfər yürüşündə iştirak edən tələbələrin əksəriyyəti Azərbaycanın digər bölgələrindən olub. Onlar qaladan yüksək təəssüratla ayrılıblar.

**Səadət ƏLİYEVA**

*Oxunması zəruri olan kitablar*

# Mütaliə mənəvi zənginliyə gedən yoldur




Bu gün informasiyalaşma əsrində kitabın və mütaliənin sosial əhəmiyyətinin getdikcə artdığını hamımız görürük. Biliklərə olan tələbatın artması kitabın yeni mövcudluq formalarının da meydana gəlməsinə, inkişafı və yayılmasına zəmin yaradır. Mütaliə mədəniyyətinin mühüm tərkib hissəsi oxuduqlarımızın qavranılması, başa düşülməsi və şərh edilməsidir. Qavramanın səviyyəsi isə şəxsin oxucu kimi dünyagörüşündən, təhsilindən, bacarıq və təcrübəsindən də xeyli dərəcədə asılıdır. Mütaliə mədəniyyəti, oxu mədəniyyəti dedikdə hər hansı konkret fəaliyyət üzrə mədəniyyət nəzərdə tutulur. Bu da, əsasən, oxucuların informasiya əldə etməsi və bu informasiyanı yeni biliyə çevirmək qabiliyyətidir. Muxtar respublikamızda son illərdə insanlarda, xüsusən də gənclərdə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşünün formalaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu sırada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq olunmasını xüsusi vurğulamaq lazımdır. Bu siyahı 30 kitabla təsdiq olunmuşdu. Sonra isə 3 kitab da əlavə edilib. Həmin siyahıda görkəmli yazıçımız Cəlil Məmmədquluzadənin "Hekayələr" kitabı da var.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynayıb, bütöv bir ədəbi məktəb formalaşdırıb. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar yaradıb. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin qələmə aldığı qiymətli dram və nəsr əsərləri, publisistikası dərin humanist məzmuna malik olub özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Bütün şüurlu həyatı ilə Azərbaycan xalqına, onun azad və xoşbəxt gələcəyinə xidmət edən, öz maarifçilik ideyaları ilə nadanlığa, səfalətə, savadsızlığa qarşı qələmilə mübarizə aparan Cəlil Məmmədquluzadənin oxunması zəruri olan kitabların siyahısına salınmış "Hekayələr" kitabına onun, adından göründüyü kimi, bir neçə hekayəsi toplanıb. Həmin hekayələrdən biri də "Poçt qutusu"dur. Dünya ədəbiyyatında hekayə janrının ən gözəl nümunələrindən sayılan, bir neçə dildə nəşr edilib yayılan "Poçt qutusu" Cəlil Məmmədquluzadəni sadə Azərbaycan kəndlisinin dostu və xeyirxahı kimi məşhurlaşdırıb. Hekayənin məzmunu da, quruluşu da cazibəlidir, təzədir. Süjeti ustalıqla inkişaf etdirilən bu əsər qeyri-adi bir sonluqla qurtardığından bir sıra alim və oxucular "Poçt qutusu"na novella hesab edirlər.

Hekayənin əsas surətləri olan Xan və onun rəiyyəti Novruzəli müəllifin satirik məramla qəsdən "İt qapan" adı verdiyi kəndlərdəndir. Zahirən sakit, qayğısız görünən bu kəndin həyatı, adamların məişəti, bir-biri ilə rəftarı ozamankı kəndin tipik mənzərəsini canlandırır. Burada, bir el məsəlində deyildiyi kimi, "bəyin bəy yeri var, kəndlinin kəndli yeri". Bu, insanların danışığında, bir-birinə müraciətlərində, rəftarlarında da hiss olunur. Xüsusilə Novruzəlinin kəlməbaşı xana "qadan alım", "xan, başına dönüm", "sənsiz mənim bir günüm olmasın!", "qurban olum sənə" deməsi onun xarakterinin açılmasına çox kömək edir. Novruzəli o qədər avamdır, dünyadan o qədər bixəbərdir ki, bəyin məktubunu poçt qutusuna salandan sonra bilmir çıxıb getsin, ya dayanıb qutunun keşiyini çəksin. Elə bu vaxt rus poçtalyonun gəlib poçt qutusundakı məktubları aparması ilə başlanan konflikt onun həbs olunması ilə nəticələnir: "Yazıq Novruzəli bir neçə dustaq ilə oturub uşaq kimi ağlayır, gözünün yaşını ətəyi ilə silir". Xanın xahişi ilə buraxılan Novruzəli olub keçən əhvalatı məzlum-məzlum nağıl eləyib "Başına dönüm, xan, bir kətdi adamam, mən nə bilirəm kağız nədi, qutu nədi, poçt nədi?" – deyəndə və hadisəni "İşdi, belə oldu. Bunlar hamısı Allahdandı. Gərək belə olaymış" kimi mömin müsəlman şüuru ilə bağlayanda, kiçik bir parçada, nə qədər mətləbləri ortaya qoyur.

Qeyd edək ki, yazıçının digər əsərlərində də dövrün, yaşadığı mühitin real görüntüləri oxucuya yanar bir qələmlə çatdırılır. Müəllif yaşadığı həyat həqiqətlərini təsvir edəndə millətin işıqlı sabahını görmək istəyirdi.

Gəlinən qənaət budur ki, mütaliə insanı bir şəxs kimi formaya salır, düşüncələrimizə və həyat tərzimizə işıq tutur. Həm də kitab oxumaq filmə baxmaqdan fərqlənir, çünki təxəyyüldə xüsusi effektlərə məhdudiyyət yoxdur. Kitab zənginlikdir, evində kitab rəfi olan insan ən zəngin insandır və məncə, onları heç bir bahalı aksesuar əvəz edə bilməz.

**Aytac CƏFƏROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 23 noyabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1452 | 1180 | 272 |
| 2. | Babək rayonu | 6703 | 4236 | 2467 |
| 3. | Ordubad rayonu | 557 | 109 | 448 |
| 4. | Culfa rayonu | 2983 | 2495 | 488 |
| 5. | Kəngərli rayonu | 4436 | 2386 | 2050 |
| 6. | Şahbuz rayonu | 791 | 746 | 45 |
| 7. | Sədərək rayonu | 1308 | 437 | 871 |
| 8. | Naxçıvan şəhəri | 437 | 362 | 75 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18667** | **11951** | **6716** |

### İtmişdir

Naxçıvan şəhəri, Ə.Naxçıvani məhəlləsi, bina 1, mənzil 29 ünvanında yaşayan Rəhimov Toğrul Xürrəm oğlunun adına olan 05/327 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Quliyeva Qızqayıt Nəriman qızının adına olan JN-408 inventar nömrəli, 10212018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktının torpaq sahəsinin qaiməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 876